# MÜBARİZ

(Milli qəhrəmanımız Mübariz İbrahimovun əziz xatirəsinə)



Uşaqlıqdan arzusu hərbçi olmaqdı. Atasına deyərdi, mənə avtomat al. Atası soruşardı:

- Avtomatı neynirsən, ay oğul?
- Çoxlu düşmən öldürəcəm..

Ata gülümsəyib oğlunun başını sığallayardı. Valideynlər bunu çox da ciddiyə almırdılar. Uşaqlıq xəyalı kimi anlayırdılar. Amma hiss edirdilər ki, bu uşaq qeyri-adidir, gələcəyi başqa cür olacaq. Öz yaşıdlarından tam fərqliydi.

Bir gün atası oğlunun istəyini yerinə yetirərək, ona oyuncaq avtomat aldı. Mübariz çox sevindi. Dərhal uşaqlar başına yığıldı. Hər gün dava-dava oynayardılar. Mübariz əlindəki silahla düşməni biçərdi. Taq-taq-taq!!

Xocalı faciəsi baş verəndə də hələ uşaqdı. Uşaq da olsa, dərk edirdi çox şeyi, xəyalında düşməni öz avtoamatıyla birbir yerə sərirdi. Dayanın, qoy böyüyüm, görərsiz, necə oğullar doğulub... - deyərdi.

Elə də olacaqdı. Böyüdükcə, ağlı kəsdikcə anladı ki, düşmən dediyi çox məkrlidi və gəlib halalca torpaqlarımızda oturublar.

Mübariz dözə bilmirdi. Yuxusu ərşə çəkilmişdi. Hərbçi olmağı arzu edirdig

Nəhayət, o gün gəlfi, hərbi xidmətə getdi. Vətən sevgisi, düşmənə nifrəti günü-gündən artırdı.

Sərhədin o tərəfində doğma torpaqlardı. Və o doğma torpaqlarda düşmən gəzirdi. Bir çoxları kimi Mübariz bunu həzm edə bilmirdi. Xidmətdə olarkən ağlına bir fikir gəlmişdi və fürsət tapan kimi onu həyata keçirmək istəyirdi.

Şəhid olmamışdan bir həftə əvvəl evlərinə getdi. Anasını, atasını öz ölümünə hazırlamaq istəyirdi. Ayrılanda dedi:

- Ana, ata, mən gedirəm, bəlkə bir də görüşmədik.
- Bıy, ay bala, nə danışırsan? Hara gedirsən? - anası həyəcanla dilləndi.

"Şəhidliyə gedirəm!" - ürəyində dedi. Anasının boynunu qucaqlayıb doyunca onu qoxuladı. Son dəfə ana ətrini ciyərlərinə çəkmək istəyirdi. Kövrəlsə də özünü saxladı.

- Vallah, dözə bilmirəm, ana! Düşmənin Xocalıda törətdiyi qırğına, qız-gəlinlərin, körpə uşaqların, əsirlərin başına açdıqları vəhşiliklərə dözə bilmirəm. Baş verənləri unuda bilmirəm! Hər gecə yuxuma girir...

Ana ürəyi çox narahat idi. Mübariz gedəndən sonra gözünə yuxu getmədi. Bəlkə görüşmədik... sözü qulaqlarında əksədə verirdi. Allah, sən özün balamı qoru!

Ana hər gün dualar edirdi. Bir gün telefonuna zəng gəldi. Oğlu idi. Ananın uçmağa qanadı olmadı.

- Səsinə qurban, aldığın nəfəsinə qurban, ay oğul!
- Ana, zəng etdim deyəm ki, haqqını halal elə.
- Bu nə sözdür, ay oğul?
- Sözdü də, deyirəm. Səndən halallıq istəyirəm. Məndən sonra qətiyyən ağlama.
- Sən nə danışırsan, oğlum?

Ananın qəlbi yerindən çıxdı. Ürəyi sürətlə döyünməyə başladı. Birdən dəlilik edərg Ay Allah, mən neyniyərəm?

O gecə ana sabaha qədər yatmadı.

Həmin gün Mübariz də oyaq idi. Namazını qılıb Allaha dualar etdi. Hər şey kino lenti kimi bir-bir Mübarizin gözü önündə canlandı. Arzusunu yerinə yetirmək üçün fürsət axtarırdı. Dostları Əhməd və Fəridlə xəyli söhbət elədi. Onu fikrindən daşındıra bilmədilər. Qərarında qətiydi.

Gecə yarı idi. Göz gözü görmürdü. Amma o, düşməni yaxşı görürdü.

Ermənilər onu qarşısında görəndə özlərini itirdilər. Avtomata belə əl ata bilmədilər. Mübariz avtomatı düşmən zabitinin başına dirədi.

- Al, bu sənin Xocalıda günahsız qətlə yetirdiyin körpələrin qisası. Bu da gəlinlərin, körpəcə qızların qisası. Taq-taraq! Mübariz özündə deyildi. Avtomatla bir-bir düşməni biçirdi. Var gücü ilə əlindəki qumbaranı düşmənə tərəf tolazladı. Güclü toz dumanı ətrafı bürüdü. Ermənilərdən bir neçəsi yerə yıxıldı.

Ermənilər elə bildilər böyük bir qoşun gəlib üstlərinə. Yuxarıya məlumat verdilər. Nəhayət köməyə gəldilər.

Gördülər ki, onları məhv edən bir nəfərdir. Komandir hirsindən bilmədi neyləsin.

Mübarizi diri tutmaq istəsələr də o, düşməni yaxın gəlməyə qoymurdu. Nəhayət onu vurdular. Son anda Vətən sağ olsun! - deyib şəhadətə qovuşdu.

Düşmən cəsədin əl-qolunu bağlamışdı və onlar Mübarizin cəsədinə yaxın getməyə belə, cəsarət etmirdilərg

**Fuad BİLƏSUVARLI**



**"Azərbaycan türkləri bu torpaqların avtoxon millətidir və bu ərazilərin yeganə sahibləridir. Dünya yaranandan və insanlıq özünü dərk edəndən bu torpaqlarda türk kimliyi var".**

Bunu AMEA-nın əməkdaşı, dosent Zaur Əliyev deyib.

Onun sözlərinə görə, Böyük Qobustan zonası, Abşeron yarımadası zonası, İçərişəhər, Gəmiqaya dağı zonası, Kəlbəcər rayonunda Dəlidağın ətəkləri, Qarabağda Azıx mağarası, Qərbi-Güney Azərbaycan, Dərbənd, Borçalı, İğdırda və digər açıq səma altında olan abidələrimiz buna sübutdur:

"Buranı tədqiq edənlər türklərin qədim damğalarını görə bilərlər. Bir millətin tarixini bilmək üçün onun damğalarına

# Türklər Cənubi Qafqazın ən qədim sakinləridir

## "Tanrı alov saçan gözlərini burada yaradıb"



baxmaq lazımdır.

Bir çox qədim dastanlar "Gilqaməş", Dədə Qorqud, "Oğuz Kağan", "Alp Ər Tonqa", "Şu" və digərləri məhz bu coğrafiyada yaşayan türklərin tarixini özündə əks etdirir.

Türklər Cənubi Qafqazın ən qədim sakinləridir.

Tarix, arxeologiya, antropologiya və digər elm sahələrində çalışan alimlərin araşdırmaları Azərbaycan türklərinin Cənubi Qafqazın ən qədim və köklü əhalisi olmasını tamamilə sübut etmişdir.

Azərbaycan türklərinin yayıldığı areala indiki Azərbaycan Respublikasının ərazisi ilə yanaşı. Güney Azərbaycan İrəvan və Zəngəzur bölgələri, Borçalı, Dərbənd torpaqları da daxildir.

Azərbaycan türkləri bir xalq kimi tarixən Dərbənddən Həmədana, Xəzər dənizindən Şərqi Anadoluyadək olan böyük bir ərazidə təşəkkül taparaq formalaşmışdır.

"Türklərin ölkəsi", "Türklərin vətəni" anlamında formulə edilən "Azərbaycan"ın Fəxrəddin, Gəncəvi, Xaqani və başqaları tərəfindən eyni anlamda ifadəsi təbii idi. Fəzlullah Rəşidəddin də bu düşüncənin davamı kimi "Oğuzname"də "Azərbaycan" sözünü Oğuz xanla bağlamışdır.

Təkcə bir misal göstərəcəm, Oğuz boyundan Qayı boyunun damğası kimi tanıdığımız IYI damğası Erkən Tunc dövründən başlayaraq Avrasiya qitəsində qayalarda, saxsı və metal məmulatların üzərində həkk edilməkdədir. "Göy Tanrı" işarəsidir. Günümüzdə bu adət Qaşqay məzar daşları üzərində tayfa mənsubiyyətini bildirən damğa kimi yaşamını sürdürməkdədir. Bu damğa isə Qobustan başda olmaqla digər abidələrin üzərində əksinin tarixi eramızdan qatqat əvvəlki dövrlərə gedib çıxır ki, o dövrlərdə hələ dünyanın böyük hissəsində millət anlayışı formalaşmamışdı. Hələ bu bir misaldır, yüzlərlə belə damğa göstərə bilərəm.(FOTO)

Əgər Ön Asiya, xüsusilə tarixi Azərbaycan və Anadolu ərazilərinə ilk türk köçü həqiqətən də eramızın V əsrinə təsadüf edirsə, burada 5-10 və daha-daha min il əvvəllərə aid olunan və dünyada "türk damğaları" kimi tanınan qədim işarələrin müəllifləri kimlərdir? Konkret deyək.

Məlumdur ki, ortaq türk damğaları təkcə özünün qədimliyi ilə yox, həm də spesifik qrafik təsvir üslubları və türk mifik təfəkkürü, inancları, yaşam tərzi, hərb sənəti, dövlətçilik ənənələrinə söykənən semantikası ilə başqa xalqların etnik tanınma fərqləndirmə nişanlarından kəskin şəkildə fərqlənir. Belə olan təqdirdə, hər hansı qədim xalqın və ya tayfanın etnogenezinin, məskunlaşma ərazilərinin müəyyənləşdirilməsində, dövlətçilik tarixinin öyrənilməsinə dair mübahisələrə son qoyulmasında digər etnomədəni əlamətlərlə yanaşı damğa işarələrinin də həlledici rolu var.

Digər misal da göstərim, Suraxanı rayonu Bakının özündə çoxsaylı sirləri saxlayan ərazilərindən biridir. Bura haqqında qədim Hind, Şərq mənbələri ilə yanaşı Avropa səyyahların da yazılarında məlumatlar var. Burda ən çox diqqəti cəlb edən abidə hindli atəşpərəstlər tərəfindən eramızın 2-3 əsrlərində tikildiyi ehtimal edilən Atəşgahdır. Bura barədə çox yazılıb. Diqqətdən qaçan bir məsələ isə Şərq və Avropa qaynaqlarında buranın adı "Yeddi çuxurlu məbəd" kimi adlanmasıdır. Burda yaşayan türklər isə Yeddi Gözlü Pir kimi buranı adlandırıblar. Burada 7 yerdən gözə oxşayan çuxurlardan alov çıxmasına görə belə adlandırılıb. Hindlilər isə buranı Şiridalavadji kimi qeyd edirlər. Maraqlı olan bilirsiz nədir? 7 göz...

Qədim türklər və şərqdən gələn atəşpərəstlər hesab edibləR ki, bura Tanrının gözü olan ərazidir və Tanrı öz alov saçan gözlərini məhz Suraxanı ərazisində yaradıb. Türk və Şərq inanclarına görə bu alovlar Tanrının səma və torpaq üzərində nəzarət edən gözlərindən çıxır.

Azərbaycanlılar arasında Y-xromosom haploqruplarından ən çox yayılmış haploqruplar J (J1, J2), G (G2) və R (R1) olur.

Y-xromosom haploqruplarının N, T, E, H, I, L, O, Q və C olması azərbaycanlılar arasında da göstərilmişdir. R haploqrupunun Avropa yarımadaları azərbaycanlıların qədim əhali ilə bağlılığından xəbər verir.

Azərbaycanlılarda mitoxondrial haploqruplardan H və U haploqruplarına daha çox rast gəlinir. Azərbaycanlıların ana nəsillərinin əksəriyyəti (82%) Avropa haploqruplarına (H, I, J, K, T, U, V, W, X) bağlıdır.

Azərbaycan ərazisinin aborigen sakinləri olan türklərin (Azərbaycan türklərinin) adını hallandırmamaq xatirinə imperiya siyasətindən asılı olaraq, bu ölkənin sakinlərinə bir ad - "azərbaycanlı" adı verilmişdir. Azərbaycan bu ərazidə



vətəndaşlıq hüququ almış hər bir xalqın vətənidir. Amma torpağın əsl sahibi türklərin olmasını bir çox qədim və müasir tədqiqatçıların əsərləri təsdiq edir. Müxtəlif tədqiqatçıların əsərlərində türklərin bu ərazidə ta qədim zamanlardan yaşaması haqqında yazılı məlumatlar vardır.

Tarixin atası Herodot 2500 il bundan əvvəl bu ərazidə türklərin yaşamasından xəbər verir. VII əsrdə yaşamış ərəb tarixçisi Cürcuma qətiyyətlə bildirir ki, Azərbaycan lap qədim çağlardan türklərin vətəni sayılır.

Elə bu minlərlə fakt içərisində ikisi göstərir ki, Azərbaycan dünya var olandan türklərin yurdudur. Məncə Hüseyn Cavidin bu misrası bizim milli kimliyimizi tam aydın edir:

***"Ay Türk adını elan üçün***
***bir səmavi aynadır,***
***Türkün tarixi həm Yerdə,***
***həm də Göylərdədir".***

**Müəllif: Əsəd MƏMMƏDƏLİYEV**